# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 398** **Bakı şəhəri, 21 dekabr 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 17 dekabr tarixli 479 nömrəli Qərarı ilə təsdiq edilmiş "Aqrar sığorta predmetinin Tərkibi"ndə dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 17 dekabr tarixli 479 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2063) ilə təsdiq edilmiş "Aqrar sığorta predmetinin Tərkibi"ndə aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 1.1.15-1.1.41-ci yarımbəndlər əlavə edilsin:

"1.1.15. günəbaxan;
1.1.16. soya;
1.1.17. yonca;
1.1.18. noxud;
1.1.19. yaşıl noxud;
1.1.20. alça;
1.1.21. albalı;
1.1.22. alma;
1.1.23. armud;
1.1.24. çiyələk;
1.1.25. ərik;
1.1.26. gavalı;
1.1.27. gilas;
1.1.28. heyva;
1.1.29. xurma;
1.1.30. nar;
1.1.31. şaftalı;
1.1.32. zeytun;
1.1.33. badam;
1.1.34. qoz;
1.1.35. soğan;
1.1.36. kələm;
1.1.37. qarpız;
1.1.38. yemiş (qovun);
1.1.39. pomidor;
1.1.40. sarımsaq;
1.1.41. darı;".

**2.** 1.2.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin və aşağıdakı məzmunda 1.2.2-ci yarımbənd əlavə edilsin:

"1.2.1. iribuynuzlu mal-qara (südlük istiqaməti üzrə 11-ci gündən 7 yaşa qədər, ətlik istiqaməti üzrə 11-ci gündən 3 yaşa qədər);

1.2.2. xırdabuynuzlu heyvanlar (11-ci gündən 5 yaşa qədər);".

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti .- 2021.- 29 dekabr.- S.8.